Kredo.- 2021.- 22 oktyabr.- S.16.

# GÜNDOĞARIN HABİLİ

Başlığa çıxarılan Gündoğar adı Azərbaycanın ilk, ən qədim adıdır. Qobustan adamlarının düşüncəsinə görə Günəş dənizdən çıxırdı. Qədim Qobustan adamları dənizi Gündoğar kimi qavrayırdılar.

Neftçalanın rayon qəzetinə "Gündoğar" adını kim verib, nə vaxt verib, bunu deyə bilmərəm. Hərçənd ki, elə də çətin deyil; kiçik bir tədqiqatla bunları da bilmək olar. Amma Gündoğar təkcə ərazi adı deyil, təkcə qəzet adı deyil. Həm də insanların mənəvi mühitində vətənin nadir obrazıdır. Hüseyn Cavidin "Azər" poemasında adı çəkilən Gündoğar... Sevgili məkan, insanları da işıqlı, parlaq. Elə Gündoğar adına layiq.

Neftçala rayonunda çıxan "Gündoğar" qəzetinin baş redaktoru Habil Əsədov... Təbiətinin bütövlüyü, xasiyətinin təbiiliyi ilə elə Gündoğar parlaqlığında görünürdü. "Mənim ömür yolum" adlı çox dəyərli memuar roman yazmışdı. Çox güman ki, qədirbilən nəsildaşlar tezliklə bu əsəri çap etdirərlər. İndi bizdə dəbdir, bahalı başdaşları qoyurlar. Ancaq heç bir maddiyyatla ölçülməyən xatirə abidə Habil Əsədovun memuar romanıdır.



70 yaşın hüdudunda cismani ömür yolunun bitməsi ilə barışmalı oldu.

Habil müəllimi mən yaxşı tanıyırdım. Həmkar kimi tanıyırdım, istedadlı jurnalist idi. Yazısına, sözünə başı ilə cavab verməyə, məsuliyyətini başı üzərində qılınc kimi saxlamağa özünü məhkum etmişdi. Onun üçün hansısa bir qaydanın pozulmağı az qala qatı bir cinayət idi. Hansısa dəyərli ənənəyə arxa çevirmək xalqın özünə xəyanət kimi qavranılırdı onun mənəvi mühitində.

Az qala qələm çalmışdı. Rayon qəzetinin neçə illər idi ki, bütün ağırlığı onun çiynində idi. Mən yaxşı bilirdim ki, qəzetə vəsait ayrılmır, amma o qəzeti qrafikdən çıxmağa qoymurdu. Öz vəsaiti ilə "Gündoğar"ın hər sayını işıqlığa çıxarırdı.

Qəzet çıxarmaq işi bilənlərə sirr deyil, az qala katorqa işi ilə müqayisədədir. Habil müəllim materialları - mətnləri hazırlayıb dəfələrlə buraya - Azərbaycan Nəşriyyatına gəlirdi. Necə çətin olsa da, bütün cəfalara dözərək səhəri gün hazır qəzetlə rayona qayıdırdı. Qəzet onun idealı idi. Mən həm də Habil müəllimi yaxın, isti bir qohum kimi tanıyırdım. Doğmalığına söz ola bilməzdi, uşaqlıq xatirələrimi də onunla bölüşürdüm. Axı mən dəniz içində ada olan, üstünə Gündoğar şəfəqlərinin işıq saçdığı Günəşli qəsəbəsində - Kürkosada birinci sinif oxumuşdum. İndi də dostlarımın çoxuna qəribə gəlir, inana bilmirəm. Cəbrayıl hara, Xudafərin hara, Xəzər dənizinin içi hara. İndi kimsəsiz, təklənmiş o ada bir vaxt mənim məktəbimin məkanı idi. Habil müəllimə bunları danışırdım. Mənə çox simsər olurdu. Tanıdığı adamların - ada sakinlərinin adlarını çəkirdi. Mənimsə yaddaşımda ancaq bir neçə ad qalmışdı. Mənim Sona müəllimim, parta yoldaşım Xuraman, sinif yoldaşım Tofiq, onun yuxarı sinifdə oxuyan qardaşı Əhmədağa... Uşaqlara asanlıqla yovuşa bilmirdim. Kimsə mənə toxunan kimi Əhmədağa özünü yetirirdi.

Habil müəllim mənim həmin uşaqlıq xatirələrimin kök atmış, boy vermiş, budaqlanmış Çinar ağacı kimi əzəmət kəsb etmiş davamı idi.

Mətbuat Şurasının sədri, tanınmış ictimai xadim Əflatun Amaşov Habilin dünyadan köçməsinə biganə qala bilməyib. Onun haqqında düşüncələrini sosial şəbəkədə ictimaiyyətlə bölüşüb: "Ömrünü bölgə mətbuatına həsr etmiş həmkarımız, respublikanın əməkdar jurnalisti, Neftçalanın "Gündoğar" qəzetinin baş redaktoru Habil Əsədov vəfat edib. Mərhumun ailə üzvlərinə, doğmalarına, yaxınlarına və həmkarlarına dərin hüznlə başsağlığı verirəm.- Bakı Dövlət Universitetinin məzunu olmuş H.Əsədov 1973-cü ildən həyatını "Gündoğar" (o zamankı "Oktyabr bayrağı") qəzetinə bağlayıb. O, həmin illərdə yeni formalaşmaqda olan rayonun quruculuq işlərində də bir jurnalist kimi böyük əmək sərf edib, rayonda mətbuat ənənələrinin, ümumən ictimai fikrin inkişafında xidmətlər göstərib.Sadəliyi, səmimiyyəti, işgüzarlığı və təşkilatçılığı ilə seçilmiş H.Əsədovun əziz xatirəsi daim yaddaşlarda qalacaqdır". Qəlbimdə Əflatun müəllimə xüsusi minnətdarlıq duyğuları baş qaldırdı. Habil müəllim kimi kimsədən nəsə ummayan, kiminsə xoş sözünə möhtaclığını bildirməyən, bütün mənəviyyatı ilə gözü könlü tox olan Habil müəllim haqqında yazılanları elə onun əvəzindən minnətdarlqla qəbul etdim.

Habil müəllim çox dəyərli dost idi. Mühitində sanbalı, ağır təmkini, bir sözlə, şəxsiyyəti ilə istisnasız olaraq təqdir olunurdu. Mükəmməl halallıq yolu ilə həyatını başa vurdu, özündən sonra ağıllı övladları, vətən üçün, cəmiyyət üçün faydalı vətəndaşlar olan ailə üzvləri, elə Habil adlı nəvəsi onun ömür yolunun davamı olaraq uzaq gələcəyəcən gedəcəklər. Bilirəm, yaxşıların izi itməz, onların getdiyi yolu, cığırı kimlərsə onun işıqlı xatirələri ilə gedəcək. Habil müəllimin həyat yolunun izi onun tanıyan insanların ürəyindən, düşüncəsindən keçir.

Könüllərdən keçən yollar əbədidir. Zaman-zaman yaşayar.

Allah rəhmət eləsin, məkanı cənnət olsun!

Ə. Xələfli

*21.10.2021*